İPƏK YOLU, No.1, 2026, səh.115-120
https://doi.org/10.30546/SI.2026.001.1053

# AZƏRBAYCAN NƏQLİYYAT SİSTEMİNDƏ YÜKDAŞIMALARIN DİNAMİK İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**Xaliq Rüstəmov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: rustamovkhalig@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycan nəqliyyat sektorunda yük daşımaların inkişaf dinamikası araşdırılmış, daşımaların həcmi üzrə artım tendensiyaları, regional və beynəlxalq inteqrasiya istiqamətləri təhlil olunmuşdur. Həmçinin, nəqliyyat sektorunun milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə, regionlararası iqtisadi əlaqələrin möhkəmlənməsinə və dayanıqlı inkişaf proseslərinə təsiri nəzəri və praktiki baxımdan təhlil edilmişdir.

**Açar sözlər:** Nəqliyyat, yük daşımaları, iqtisadi inkişaf, nəqliyyat infrastrukturu.

## DYNAMIC DEVELOPMENT CHARACTERISTICS AND PROSPECTS OF FREIGHT TRANSPORTATION IN AZERBAIJAN TRANSPORTATION SYSTEM

**Khalig Rustamov**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract.** The article examines the dynamics of freight transport development in the Azerbaijani transport sector, analyzes trends in transport volume growth and regional and international integration directions. It also analyzes the impact of the transport sector on the competitiveness of the national economy, the strengthening interregional economic relations and sustainable development processes from a theoretical and practical perspective.
**Keywords:** Transportation, freight transport, economic development, transportation infrastructure.

## 1. Giriş

Qlobal iqtisadi inkişafın müasir mərhələsində nəqliyyat sektoru yalnız istehsal və xidmət sahələrinin davamlı fəaliyyətini təmin edən texniki infrastruktur kimi deyil, həm də milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyini müəyyən edən strateji amil kimi də dəyərləndirilir. Bu sahə ölkələrin iqtisadi artımına, regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsinə, regionl inteqrasiyasının güclənməsinə və əhalinin rifah səviyyəsinin yüksəlməsinə bilavasitə təsir göstərir. Nəqliyyat sisteminin dayanıqlı inkişafı və səmərəli fəaliyyəti daxili bazarda istehsal və ticarət dövriyyəsinin sürətlənməsinə təkan verməklə yanaşı, xarici iqtisadi əlaqələrin coğrafiyasını da əhəmiyyətli dərəcədə genişləndirir. Hazırkı dövrdə tədqiqat istiqamətləri sırasında nəqliyyat sektorunun və müxtəlif nəqliyyat dəhlizləri üzrə nəqliyyat daşımalarının inkişaf dinamikasının öyrənilməsi xüsusi aktuallıq qazanmışdır. Bu kontekstdə yük və sərnişin daşımalarının həcmi, onların artım dinamikası, səmərəlilik göstəriciləri və struktur dəyişiklikləri ilə bağlı aparılan elmi təhlillər yalnız nəzəri baxımından deyil, həm də milli inkişaf strategiyalarının formalaşdırılması baxımından zəruridir. Belə yanaşma nəqliyyat sektorunun iqtisadiyyata verdiyi töhfəni daha dərindən qiymətləndirməyə, dövlətin nəqliyyat siyasətində prioritetlərin müəyyənləşdirilməsinə və inkişaf istiqamətlərinin dəqiq proqnozlaşdırılmasına imkan yaradır.

## 2. Azərbaycan nəqliyyat sektorunun iqtisadi əhəmiyyəti

Azərbaycanda da nəqliyyat sektorunun inkişafı dinamikasının təhlili və öyrənilməsi, gələcəkdə bu sahədə mövcud potensial imkanların müəyyənləşdirilməsi iqtisadi inkişaf baxımından zəruri hesab olunur. Xüsusilə qloballaşma şəraitində nəqliyyat şəbəkələrinin inkişafı beynəlxalq ticarətin liberallaşdırılması, logistika sistemlərinin təkmilləşdirilməsi və regional tranzit imkanlarının genişləndirilməsi üçün əsas mexanizm rolunu oynayır. Azərbaycan iqtisadiyyatında nəqliyyat sektoru ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri kimi xüsusilə inkişaf etdirilir və bu sahəyə əhəmiyyət verilir. Milli iqtisadiyyatımızda nəqliyyat sisteminin səmərəli inkişafı iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafı və ixrac imkanlarının genişlənməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Coğrafi mövqeyinə görə Azərbaycan Respublikası Şərqlə Qərb, Şimalla Cənub arasında yerləşən mühüm strateji tranzit mərkəzi kimi çıxış edir. Bu üstün mövqe ölkənin yalnız regional deyil, həm də qlobal nəqliyyat və logistika şəbəkələrinə inteqrasiya imkanlarını genişləndirir. Azərbaycanın tranzit potensialı yük və sərnişin daşımalarının səmərəli təşkilinə, beynəlxalq ticarət və investisiya axınlarının sürətləndirilməsinə və əlaqələrinin genişləndirilməsinə əlverişli şərait yaradır. Bu xüsusiyyət həm daxili bazarda iqtisadi fəaliyyətin intensivləşməsinə, həm də beynəlxalq səviyyədə iqtisadi əməkdaşlıq və tərəfdaşlıqların möhkəmlənməsinə xidmət edir. Beləliklə, respublikamızın tranzit-logistika funksiyası yalnız nəqliyyat sektorunun inkişafı üçün deyil, bütövlükdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün də mühüm strateji istiqamət hesab olunur.

Nəqliyyat sektorunun inkişafına yönəlmiş məqsədyönlü və qətiyyətli tədbirlər nəticəsində son illərdə Azərbaycanda yük daşımalarının həcmi davamlı artım nümayiş etdirmişdir. Bu artım təkcə daşınma həcmlərinin yüksəlməsi ilə məhdudlaşmır, eyni zamanda onların ümumi strukturunda keyfiyyət xarakterli dəyişikliklərin baş verməsi ilə də səciyyələnir. Statistik məlumatların təhlili göstərir ki, ölkə üzrə yük daşımalarının əsasını dəmir yolu və avtomobil daşımaları təşkil etmişdir. Həmçinin, Azərbaycanın tranzit-logistika imkanlarının gücləndirilməsi istiqamətində strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzrə yeni infrastruktur layihələri reallaşdırılmışdır [4, s.1585]. Bu layihələr ölkənin beynəlxalq yükdaşımaları sahəsində regional nəqliyyat qovşağı rolunu daha da möhkəmləndirməklə yanaşı, multimodal daşımaların tətbiqini genişləndirərək səmərəliliyin yüksəldilməsinə, ticarət dövriyyəsinin sürətlənməsinə və tranzit potensialının artmasına zəmin yaratmışdır. Beləliklə, Azərbaycan nəqliyyat sektoru yalnız daxili iqtisadi tələbatı qarşılamaqla kifayətlənmir, həm də beynəlxalq nəqliyyat şəbəkələrinin inteqrasiyasında strateji funksiyanı həyata keçirir.

## 3. Azərbaycanda nəqliyyat-logistika sektorunda yükdaşımaların inkişaf tendensiyaları

Strateji-coğrafi mövqeyi sayəsində Azərbaycan Şərq ilə Qərbi, Şimal ilə Cənubu birləşdirən vacib tranzit məkanına çevrilərək beynəlxalq ticarət və yükdaşımaların əsas mərkəzlərindən biri statusunu qazanmışdır. Bu baxımdan, dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri, beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşdırılması və logistika xidmətlərinin müasir tələblərə uyğunlaşdırılması inkişaf dinamikasının əsasını təşkil edir. Xüsusilə, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Bakı Ələt Dəniz Ticarət Limanı və logistika mərkəzi layihələri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin genişlənməsi Azərbaycanın tranzit imkanlarını nəzərəçarpacaq dərəcədə gücləndirmişdir.

**Cədvəl 1.** Nəqliyyat sektorunda yükdaşınmaların ümumi həcmi və illik artım tempi

| **İllər** | **Daşınma həcmi (min tonla)** | **Artım tempi (faizlə)** |
|---|---|---|
| 2010 | 196.452 | 3.193747 |
| 2011 | 203.586 | 3.631421 |
| 2012 | 210.862 | 3.57392 |
| 2013 | 217.926 | 3.350058 |
| 2014 | 221.991 | 1.865312 |
| 2015 | 222.373 | 0.172079 |
| 2016 | 222.461 | 0.039573 |
| 2017 | 226.419 | 1.779188 |
| 2018 | 230.144 | 1.64518 |
| 2019 | 235.288 | 2.235122 |
| 2020 | 188.629 | -19.8306 |
| 2021 | 193.903 | 2.795965 |
| 2022 | 218.716 | 12.7966 |
| 2023 | 230.217 | 5.112109 |

**Mənbə:** [1]

Cədvəl 1-də illər üzrə nəqliyyat sektorunda yükdaşınmaların ümumi həcmi verilmiş və müəllif tərəfindən müəyyən edilən illik artım tempi göstəriciləri əks olunmuşdur. Cədvəldə verilmiş statistik göstəricilər üzrə 2010-2019-cu illər ərzində artım dinamikası müşahidə olunsa da, 2020-ci ildəki kəskin azalma nəzərə çarpır. Bunun əsas səbəbi pandemiya dövründə çətinliklərin və qapanmaların mövcud olması, bu proseslərin özlüyündə nəqliyyat sektoruna da əsaslı təsiri ilə əlaqədardır. 2021-ci ildən yenidən artım müşahidə edilmişdir [1].

Statistik göstəricilərə nəzər saldıqda, 2023-cü ildə Azərbaycanda ümumi yükdaşıma həcmi 230,2 milyon ton təşkil etmişdir ki, bu göstərici əvvəlki ilin göstəricisi ilə müqayisədə 5,2%-lik artımı ifadə edir. Diaqram 1-də ölkəmizin ərazisindən həyata keçirilən yük daşınmalarının strukturu verilmişdir, daha çox yükdaşımalar həcminin 58% olmaqla avtomobil daşımalarına məxsus olduğunu müşahidə olunmuşdur. İkinci ən çox daşımalar boru kəməri daşımaları olub, ümumi yükdaşımaların 30%-ni təşkil edir. Sonrakı yerlərdə dəmiryolu daşımaları, dəniz daşımaları və hava daşımaları qərarlaşmışdır.




**Diaqram 1.** 2023-cü il üzrə yük daşınmaların strukturu, yekuna nisbətən %-lə
**Mənbə:** [1]

2023-cü ildə Azərbaycan üzrə yükdaşımaların həcmini digər MBD ölkələri ilə müqayisə etdikdə, son illərdə artan yükdaşıma həcmiylə ölkəmizin bu istiqamətdə bəzi ölkələri üstələdiyinin şahidi oluruq. Diaqram 2-də Azərbaycanda və bəzi ölkələrdə 2023-cü il göstəriciləri üzrə yükdaşıma həcmləri əks olunmuşdur [1].




**Diaqram 2.** 2023-cü il müxtəlif ölkələrdə yük daşınmaların həcmi (milyon tonla)
**Mənbə:** [1]




**Diaqram 3.** 2023-cü il üzrə yük daşınmaların strukturu, yekuna nisbətən %-lə
**Mənbə:** [1]

2023-cü ildə ölkəmizin qoşulduğu beynəlxalq nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin ümumilikdə ümumi həcmi 32,8 milyon ton təşkil etmişdir ki, bu da daşınan ümumi yüklərin təxminən 14%-ni təşkil edir. Bu yüklərin 17,3 milyon tonu Şərq-Qərb nəqliyyat dəhlizi üzrə, 9,3 milyon tonu Şimal-Cənub dəhlizi üzrə, 5,9 milyon tonu Şimal-Qərb dəhlizi üzrə daşınmışdır. Nəqliyyat dəhlizlərində daşınmış ümumi yükün dəhlizlər üzrə strukturu faizlərlə Diaqram 3-də verilmişdir. Dəhlizlər üzrə tranzit yükdaşımaların ümumi həcmi isə 18,6 milyon ton təşkil etmişdir [1].

## 4. Azərbaycanda nəqliyyat-logistika sektorunda yükdaşımaların artım potensialı

Azərbaycanın nəqliyyat-logistika sektorunun inkişaf perspektivləri son illərdə genişlənərək bir sıra fərqli istiqamətlər üzrə formalaşmaqda davam edir. Azərbaycanın əlverişli geoiqtisadi mövqedə və qlobal nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi gələcəkdə də uzunmüddətli dövrdə tranzit imkanlarının əhəmiyyətli dərəcədə inkişafı üçün əlverişli şərait yaradır. Xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu adlandırdığımız Orta Dəhliz vasitəsilə Şərqdən Qərbə, daha dəqiqliklə Çindən Avropaya daşınan yüklərin müəyyən hissəsinin Azərbaycan üzərindən daşınması əlavə tranzit gəlirləri ilə yanaşı, logistik xidmətlərin inkişafına və diversifikasiyasına da təkan verəcəkdir [2, s.55].

İkinci mühüm inkişaf istiqaməti isə rəqəmsal logistikanın inkişafı və müasir "yaşıl nəqliyyat" konsepsiyasının tətbiqi ilə bağlıdır. Elektron gömrük prosedurları, rəqəmsal sənəd dövriyyəsinin tətbiqi və yük izləmə sistemləri nəqliyyat-logistika sektorunun səmərəliliyini artırmaqla yanaşı, Azərbaycanın beynəlxalq əhəmiyyətli logistika şəbəkələri ilə inteqrasiyasını sürətləndirəcəkdir [3, s.153].

Növbəti inkişaf istiqaməti işğaldan azad olunmuş ərazilərdə nəqliyyat-kommunikasiya infrastrukturunun bərpası və yeni logistika qovşaqlarının yaradılması ilə bağlıdır. Bu istiqamətdə həyata keçirilən bir sıra əhəmiyyətli layihələr, Füzuli Beynəlxalq Hava Limanının fəaliyyəti, Horadiz-Ağbənd dəmir yolu xəttinin inşası və Zəngəzur dəhlizinin gələcəkdə açılması regionun tranzit potensialını artıraraq, Azərbaycanın Türkiyə və Orta Asiya ilə birbaşa əlaqələrini möhkəmləndirəcək, inkişafın yeni istiqamətlərini müəyyən edəcəkdir. Bu layihələrin icrası daxili iqtisadi inkişaf və canlanma ilə yanaşı, beynəlxalq yük daşımalarının da stimullaşdırılmasına şərait yaradacaqdır. Həmçinin, digər bir perspektiv Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi və yeni logistika mərkəzlərinin qurulması ilə bağlıdır. Bu limanın illik yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması, konteyner daşımalarının isə 500 min TEU (20 futluq konteyner) həcmində proqnozlaşdırılması Azərbaycanın Xəzəryanı regionda əsas dəniz-logistika mərkəzinə çevrilməsini şərtləndirəcəkdir. Eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyətinin 5 milyon tondan 17 milyon tona qədər artırılması istiqamətində görülən əhəmiyyətli işlər gələcəkdə ölkənin tranzit daşımalarında yeni irəliləyişlərə səbəb olacaqdır. Bu, xüsusilə Avropa və Asiya arasında ticarət dövriyyəsinin artdığı şəraitdə Azərbaycanın strateji əhəmiyyətini və regionda mövqeyini daha da gücləndirəcəkdir [1].

Ümumilikdə, perspektivlərin reallaşması üçün dövlətin nəqliyyat-logistika sektorunu prioritet inkişaf sahəsi kimi müəyyən etməsi, xarici sərmayələrin cəlbi, innovativ texnologiyaların tətbiqi və xidmət keyfiyyətinin artırılması həlledici rol oynayacaqdır. Bütün bunlar sübut edir ki, yaxın gələcəkdə Azərbaycan yalnız regional deyil, həm də qlobal səviyyədə rəqabətqabiliyyətli tranzit-logistika mərkəzi statusunu qazanmaq potensialına malikdir.

**Nəticə.** Azərbaycan nəqliyyat-logistika sistemi son illərdə milli iqtisadiyyatın dayanıqlılığını təmin edən və beynəlxalq inteqrasiyanı gücləndirən aparıcı sahələrdən birinə çevrilmişdir. Pandemiya dövründə müşahidə olunan geriləmə müvəqqəti xarakter daşımış, sonrakı mərhələdə isə artım dinamikası bərpa olunaraq daha intensiv xarakter almışdır. Bu proses ölkənin logistika sisteminin iqtisadi şoklara qarşı adaptasiya qabiliyyətini nümayiş etdirir.

Nəqliyyat növləri üzrə strukturun təhlili göstərir ki, avtomobil daşımaları üstünlük təşkil etsə də, dəmir yolu və dəniz daşımalarının payı getdikcə artır və bu, multimodal daşımaların inkişaf perspektivlərini möhkəmləndirir. Boru kəməri daşımalarının sabit paya malik olması enerji sektorunun logistik sistemdə xüsusi yerini qoruduğunu təsdiqləyir. Bununla yanaşı, beynəlxalq nəqliyyat dəhlizləri üzrə tranzit yüklərinin həcminin yüksəlməsi Azərbaycanın regionda strateji tranzit mərkəzi kimi rolunu gücləndirir və ölkənin geoiqtisadi mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir. Sektorun inkişaf perspektivləri həm daxili, həm də beynəlxalq amillərlə müəyyən olunur. Daxili baxımdan işğaldan azad olunmuş ərazilərdə yeni nəqliyyat infrastrukturunun qurulması, rəqəmsal texnologiyaların tətbiqi və logistika xidmətlərinin keyfiyyətinin artırılması prioritet istiqamətlərdir. Xarici amillərə gəldikdə isə Orta Dəhlizin genişləndirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun yükötürmə qabiliyyətinin artırılması və Xəzər dənizi üzərindən tranzit potensialının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycan nəqliyyat-logistika sistemi yalnız regional bazarların tələblərinə cavab verən mexanizm deyil, həm də qlobal tranzit şəbəkəsinin mühüm həlqəsi olmaq yolundadır. Bu isə ölkənin gələcəkdə rəqabətqabiliyyətli logistik mərkəz kimi mövqeyini möhkəmləndirəcəkdir.

## Ədəbiyyat

1. https://www.stat.gov.az/source/transport/
2. İmanzadə R. (2019), Azərbaycanda logistika sektoru və problemləri. Magistr dissertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, 70.
3. Qardaşov V. (2024), Müasir dövrdə yaşıl logistikanın əhəmiyyəti və rolu. Geostrategiya, 151-154.
4. Rzayev E., Fidan Y., Çetin S. (2022), Azerbaycan lojistik sektörünün genel durumu ve geliştirilebilecek alanlar. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi, No.21, 1581-1608.